# Azərbaycanın xarici işlər naziri ABŞ-də səfərdədir









Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Bayden tərəfindən təşkil edilən rəsmi qəbulda iştirak edib.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirak məqsədilə Nyu York şəhərinə işgüzar səfəri çərçivəsində Yəhudi Təşkilatlarının Koalisiyasının (YTK) nümayəndələri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə ABŞ-də yerləşən yəhudi təşkilatları ilə əməkdaşlığın mövcud vəziyyəti, perspektivləri və yeni əməkdaşlıq imkanları, eləcə də bölgəmizdə cari vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın bütün dünyadakı yəhudi icmaları ilə ənənəvi dostluq münasibətinin mövcudluğunu vurğulayaraq, ölkəmizin bu əlaqələrin daha da gücləndirilməsi və yeni əməkdaşlıq layihələrinin həyata keçirilməsində maraqlı olduğunu qeyd edib. Eyni zamanda Azərbaycanın Amerika yəhudi təşkilatları ilə əlaqələrinin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub və Azərbaycan yəhudi icmasının illər boyu ölkəmizdə sülh şəraitində dinc yanaşı yaşadığı və yaxından cəmiyyətimizə inteqrasiya olunduğu qeyd edilib.

Nazir həmçinin Azərbaycanda tolerantlıq və multikulturalizmin tarixən mövcud olduğunu, müxtəlif konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində ölkəmizdə dinc yanaşı yaşadığını, çox sayda sinaqoq, məktəb, mədəniyyət mərkəzinin fəaliyyət göstərdiyini və konfessional rəngarəngliyin ölkəmizin sosial həyatında xüsusi yer tutduğunu qeyd edib.

Ceyhun Bayramov YTK-nın nümayəndələrini regiondakı son vəziyyət və Azərbaycan tərəfindən başladılan lokal antiterror tədbirləri barədə məlumatlandırıb və bu tədbirləri şərtləndirən amilləri diqqətə çatdıraraq, YTK-nın regionumuzdakı həqiqətlərin Amerika ictimaiyyətinə çatdırılmasındakı rolunu vurğulayıb.

Görüşdə tərəflər həmçinin Azərbaycan-ABŞ münasibətlərinin inkişafı perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

* * *

Sentyabrın 21-də Nyu Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov Niderland Krallığının xarici işlər naziri Hanke Braun Slot ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, Ceyhun Bayramov həmkarını Ermənistanın 30 ilə yaxın müddətdə ərazilərimizin işğalı, 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın Azərbaycanın Qarabağ bölgəsində qurduğu rejimin qanunsuz mövcudluğundan irəli gələn regional risklər və təhdidlər, Ermənistanın sülh prosesinə xələl gətirən addımları barədə ətraflı məlumat verib.

Nazir Ceyhun Bayramov bölgədə lokal xarakterli antiterror tədbirlərini şərtləndirən amillərdən söz açaraq qondarma rejimin son təxribatları, terror hücumları barədə həmkarını ətraflı məlumatlandırıb, ölkəmizin suveren ərazisi daxilində növbəti hərbi təxribatların və terror aktlarının qarşısının alınması məqsədilə Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən tədbirlərin beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarına tam uyğun olduğunu vurğulayıb.

Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin öhdəliklərə zidd olaraq bölgədə qanunsuz mövcudluğunu davam etdirməsinin davamlı sülhə ciddi əngəl olması səbəbindən onların Azərbaycan ərazisindən qeyd-şərtsiz və tamamilə çıxarılmasının, qondarma rejimin buraxılmasının labüd olduğu, hərbi təxribatların və törədilmiş terror aktlarının qətiyyətlə pislənməsinin, Ermənistan daxilində separatist və revanşist qüvvələrin cəsarətləndirilməsinə yönəlik bəyanatların verilməməsinin zəruri olduğu nazir tərəfindən vurğulanıb.

Görüşdə həmçinin 20 sentyabr tarixində Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəticəsində lokal xarakterli antiterror tədbirlərinin dayandırıldığı, 21 sentyabr tarixində Azərbaycanın Yevlax şəhərində reinteqrasiya məsələlərinin müzakirəsi məqsədilə görüş keçirildiyi diqqətə çatdırılıb, bu addımların Azərbaycanla Ermənistan arasında normallaşma gündəliyi üzrə maneənin aradan qalxmasına töhfə verəcəyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycanla Niderland arasında qarşılıqlı maraq kəsb edən digər mövzular üzrə fikir mübadilələri aparılıb.

* * *

BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasından irəli gələn məsələlər, ətraf mühitin qorunması sahəsində mümkün əməkdaşlıq perspektivləri, ölkəmizin konvensiya çərçivəsində təşəbbüsləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan tərəfindən ətraf mühitin qorunması və bərpası sahəsində təsdiqlənmiş bir sıra dövlət proqramlarının icrası istiqamətində ölkəmizin BMT-nin bir sıra qurumları ilə aktiv əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Ölkəmizin bu sahədə ənənəvi enerji mənbələrindən alternativ enerjiyə keçid istiqamətində irəli sürdüyü təşəbbüslərdən bəhs edən nazir Ceyhun Bayramov, bu xüsusda, ötən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış Anlaşma Memorandumunun özündə bərpaolunan enerji istehsalında əməkdaşlığı nəzərdə tutmasının bu sahənin təşviqində mühüm rol oynadığını diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Ruanda Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Vensan Biruta ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə iki ölkə arasında ikitərəfli, habelə çoxtərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov xüsusilə Qoşulmama Hərəkatına (QH) sədrlik dövründə ölkəmizin Afrika regionunun bir sıra ölkələri, o cümlədən Ruanda ilə əlaqələrinin inkişaf etdiyini diqqətə çatdırıb.

Bu xüsusda, bir-birindən coğrafi baxımdan uzaqda yerləşmələrinə baxmayaraq, iki ölkə arasında əməkdaşlığın inkişafının mümkün olduğu bildirilib və bu istiqamətdə siyasi məsləhətləşmələr mexanizminin prosesə müsbət töhfə verə biləcəyinə dair inam ifadə olunub.

Nazir Vensan Biruta Azərbaycanın QH-yə uğurlu sədrlik təcrübəsini məmnunluqla xatırlayaraq, xüsusilə COVID-19 pandemiyası dövründə Hərəkata üzv dövlətlər, o cümlədən Afrika regionu ölkələrini əhatə edən mühüm təşəbbüslərin əhəmiyyətini qeyd edib.

Görüş zamanı həmçinin "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ruanda Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında anlaşma memorandumu" və "Azərbaycan Respublikası hökuməti və Ruanda Respublikası hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında saziş" imzalanıb.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Polşa Respublikasının xarici işlər naziri Zbiqnev Rau ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə iki ölkə arasında əməkdaşlıq məsələləri, habelə regionda mövcud vəziyyət müzakirə olunub.

Bölgədə sülh və sabitliyin bərqərar olmasına ən böyük maneələrdən biri kimi 30 ilə yaxın işğalın qalıqları olan qeyri-qanuni erməni silahlı qüvvələrinə qarşı tərəfimizdən görülən antiterror tədbirlərindən bəhs edən nazir Ceyhun Bayramov sözügedən tədbirlər çərçivəsində Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində tərəfimizdən bütün lazımi tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Ermənistan tərəfindən sülh prosesini, eləcə də erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyasını ləngitmək, beynəlxalq ictimaiyyəti yanıltmaq məqsədilə aparılan qarayaxma kampaniyası çərçivəsində səslənən, bölgədə guya "humanitar böhran", "blokada" olması ilə bağlı iddiaların əsassız olduğu vurğulanıb.

Bu yaxınlarda Azərbaycan tərəfindən uzun müddətdir təklif və təşviq edilən Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının eyni zamanda açılması təklifinin həyata keçirilməsinin, əslində, məsələnin həllinin lap əvvəldən danışıqlar masasında olduğunun, lakin bunun Ermənistanın və qondarma rejimin maraqlarına xidmət etmədiyi üçün süni maneələr vasitəsilə gecikdirildiyini göstərdiyi bildirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonna tərəfindən səsləndirilən olduqca məsuliyyətsiz açıqlamalar bölgədə mövcud reallıqların təhrif edilməsinə yönəlib.

Bu fikirlər Fransanın Avropa və xarici işlər nazirinin Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni silahlı qüvvələrinə qarşı görülən antiterror tədbirlərinin nəticələri ilə bağlı fikirlərinə dair Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) şərhində yer alıb.

Bildirilib ki, qeyri-qanuni erməni silahlı qüvvələrinin mümkün hərbi təxribatlarının və terror aktlarının qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələri tərəfindən öz suveren ərazilərimizdə həyata keçirilən yerli antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə reallaşdırılıb.

Fransanın Ermənistan rəhbərliyi tərəfindən erməni silahlı qüvvələrinin ərazilərimizdən geri çəkilməsi üzrə öhdəliklərinin yerinə yetirilməməsini, hərbi-siyasi təxribatların törədilməsini, o cümlədən Ermənistan baş nazirinin son 30 ildə bu ölkə tərəfindən dəstəklənən qondarma rejimə sentyabrın 2-də ünvanladığı məsuliyyətsiz təbrik mesajını qınamaq əvəzinə, Azərbaycan əleyhinə səsləndirdiyi fikirləri separatizmin və Ermənistan daxilindəki revanşist qüvvələrin təşviqindən başqa bir şey deyil.

Fransanın BMT Təhlükəsizlik Şurasının öncəki iclaslarında Azərbaycanı təkləmək cəhdlərinin uğursuzluğa düçar olmasına baxmayaraq, bu ölkənin növbəti dəfə Təhlükəsizlik Şurasından bölgəni məhdud şəkildə anlayan siyasəti və mövcud həqiqətlərin danılması üçün istifadə etmək cəhdi təhlükəli olmaqla yanaşı, bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsinə xidmət etmir.

"Azərbaycan heç vaxt dinc erməni sakinləri hədəf almayıb, erməniəsilli sakinlərin cəmiyyətimizə reinteqrasiyası prosesini həyata keçirməyə və Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində onların hüquq və təhlükəsizliyinin təmin edilməsinə sadiqdir. Bu xüsusda, Fransanın erməni sakinlərin mövcud olmayan "kütləvi deportasiyası" ilə bağlı iddiası yalnız bu ölkənin Azərbaycana qarşı növbəti ittihamları səsləndirməsi üçün mövcudluğuna ümid bəslədiyi bir düşüncədir.

Bütün qeyri-qanuni silahlı birləşmələrin qısa zaman ərzində tam tərk-silah edilməsi və çıxarılması, habelə qanunsuz qondarma rejiminin buraxılması, mərkəzi hökumət nümayəndələri ilə yerli erməni sakinlər arasında onların Azərbaycanın Konstitusiyası çərçivəsində bərabərhüquqlu vətəndaşlar kimi cəmiyyətimizə reinteqrasiyası ilə bağlı məzmunlu dialoq üçün şəraitin yaradılmasının açarıdır.

Bunun da öz növbəsində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesinə də müsbət töhfə verəcəyini hesab edirik.

Erməni sakinlər ilə Azərbaycan rəsmiləri arasında birbaşa dialoqun, bölgədə tərk-silah və demilitarizasiyanın praktiki baxımdan icrasına başlanılması ilə müşayiət olduğu bir vaxtda beynəlxalq ictimaiyyət, xüsusilə Fransa tərəfindən vəziyyətin dəyərləndirilməsi dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq hüququn normalarına uyğun olmalıdır", - deyə XİN-in şərhində vurğulanıb.

***AZƏRTAC***